## “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

öz səlahiyyəti daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci bəndində və 19-cu maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın, habelə 6-cı maddəsinin 3-cü bəndində, 25-ci maddəsinin 6-cı bəndində, *41-ci maddəsinin 12-ci bəndində və 41-1-ci maddəsinin 1-ci hissəsində* nəzərdə tutulmuş “Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[1]

həmin qanunun 2-ci maddəsinin 5-ci bəndində, 5-ci maddəsinin 2-ci bəndinin “b” yarımbəndində, 7-ci maddəsinin “c” bəndində, 13-cü maddəsinin 1-ci bəndində, 14-cü maddəsinin birinci hissəsində, 15-ci maddəsinin 1-ci bəndində, 16-cı maddəsinin 3-cü bəndində, 19-cu maddəsinin 2-ci bəndində və 50-ci maddəsinin 6-cı bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini *Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* həyata keçirir; [2]

*həmin Qanunun 10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.*[3]

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

Bakı şəhəri, 23 iyun 1997-ci il
604

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**)
2. 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
3. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)**
4. 5 sentyabr 2018-ci il tarixli **260** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 6 sentyabr 2018-ci il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1823)**
5. 29 aprel 2019-cu il tarixli **659** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 30 aprel 2019-cu il, 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 657)**
6. 28 dekabr 2022-ci il tarixli nömrəli **1921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il, “Xalq” qəzeti, 29 dekabr 2022-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1431)**

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 sentyabr 2018-ci il tarixli **260** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 6 sentyabr 2018-ci il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1823**) ilə 2-ci hissənin ikinci abzasında “**və 41-ci maddəsinin 12-ci bəndində**” sözləri “**, 41-ci maddəsinin 12-ci bəndində və 41-1-ci maddəsinin 1-ci hissəsində** ” sözləri ilə əvəz edilmişdir.

[2] 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**) ilə 2-ci bəndin üçüncü abzasında "**Dövlət Əmlak Komitəsi**" sözləri "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə 2-ci bəndinin üçüncü abzasında “**İqtisadi İnkişaf Nazirliyi**” sözləri “**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**” sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə 2-ci bəndinin üçüncü abzasında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2022-ci il tarixli nömrəli **1921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il, "Xalq" qəzeti, 29 dekabr 2022-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1431**) ilə 2-ci hissənin üçüncü abzasında "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 aprel 2019-cu il tarixli **659** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 aprel 2019-cu il, 93 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 657**) ilə 2-ci hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda dördüncü abzas əlavə edilmişdir.